https://doi.org/10.36719/2663-4619/108/50-53

**Zərnişan İsayeva**
Naxçıvan Dövlət Universiteti
zernisanisayeva94@gmail.com

# Şagird motivasiyasının artırılması yolları

**Xülasə**

Məqaləmizdə şagird motivasiyasını necə və hansı yollarla artırmaq barədə bəhs etmişik. Şagird motivasiyasını artırmağın bir çox yolları vardır; şagirdlərə təriflər söyləmək, əyləncəli oyunlar keçirtmək, mükafat və ya hədiyyələr vermək, gündəliklərinə şəkillər yapışdırmaq və s.

Şagird motivasiyasını artırmaqla, onların dərsə maraqlarını artırmış oluruq və öyrənmə prosesi daha keyfiyyətli və güclü olur. Motivasiyalı şagird digər şagird yoldaşlarına nəzərən, dərsi öyrənməyə daha çox həvəsli olur. Onun üçün məktəblərdə, universitetlərdə şagird və tələbələrin hər zaman dərsə və öyrənməyə marağını və həvəsini artırmaq üçün onlar daim motivasiya edilməlidir. Şagird və tələbələri motivasiya etmək üçün müəllim daim müxtəlif yeni metodlardan istifadə etməlidir. Bu metodlar tələbələrin və şagirdlərin yaş hədlərinə, maraq dairələrinə, şəxsiyyətinə görə hər bir şəxsə müxtəlif fərdi yanaşma edilərək seçilməlidir. Düzgün seçilmiş motivasiya üsulları ilə müəllim istədiyi məqsədə çatmış olacaq. Motivasiya edilmiş tələbələr və şagirdlər öyrənilməsi tələb olunan mövzunu mükəmməl şəkildə mənimsəyəcək və məqsədə uğurla çatmış olacaq. Məqalədə bu metodlardan hər zaman uğurlu olanlarının bir neçəsinə nəzər yetirəcəyik.

***Açar sözlər:*** *motivasiya, fəaliyyət, idrak fəallığı, müvəffəqiyyət, motivasiya üsulları*

**Zarnishan Isayeva**
Nakhchivan State University
zernisanisayeva94@gmail.com

# Ways to Increase Student Motivation

**Abstract**

In our article, we talked about how and in what ways to increase student motivation. There are many ways to increase student motivation: giving praise to students, playing fun games, giving prizes or gifts, pasting pictures in their journals, etc.

By increasing student motivation, we increase their interest in the lesson, and the learning process becomes more qualitative and powerful. A motivated student is more eager to learn than other students. Therefore, in scholls and universities, pupils and students should always be motivated to increase their interest and enthusiasm for lessons and learning. To motivate students and pupils, a teacher must constantly use a variety of new methods. These methods should be used to treat pupils and students differently because of their age and personality. With the rightly chosen motivational methods, the teacher will have achieved what he wants. Motivated students and pupils will perfectly absorb the subject required to study and the goal will be successful. We will look at a few of those who have always been successful in this article.

***Keywords:*** *motivation, activity, cognitive activity, success, motivational methods*

## Giriş

Motivasiya təlim prosesini hərəkətə gətirən və şagirdlərin idrak fəallığına təkan verən bir prosesdir. Bir işdə nailiyyət əldə edə bilmək üçün həmin işə çox zaman və böyük əmək sərf etmək lazımdır. Davamlı olaraq zaman və əmək sərf etmək üçün isə motivasiya lazımdır. Motivasiya insanları müəyyən istiqamətlərə və fəaliyyətə yönəldən və bizi müxtəlif fəaliyyətlərə sövq edən daxili hissdir. Uğurlu nəticə əldə edə bilmək öyrənmə və motivasiya əsas əsas amildir. Öyrənmə bizə bilik və bacarıqları əldə etməyə, motivasiya isə öyrəndiklərimizi göstərmək üçün təkan verir.

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Motivasiya tədris və öyrənmə prosesində qarşıya çıxan poblemləri həll etməyə və qarşıya qoyulan məqsədə çatmağa kömək edir. Həqiqi bir məqsəd olduğu zaman, motivasiya şagirdi bu məqsədləri həyata keçirmək üçün daha çox çalışmağa və mübarizə etməyə yönəldir (Əlizadə, Bayramov, 2006).

**Tədqiqat**

Motivasiya hər hansı bir fəaliyyətin mexanizmini işə salan qüvvədir. Müasir dövrdə şagirdlərin qarşılaşdığı əsas problem motivasiya əksikliyidir. Motivasiya məktəbdəki şagirdlərin davranışını, qərarlılığını, fəaliyyətini müəyyənləşdirən ən önəmli güc mənbələrindən biridir. Şagirdlər motivasiyalarının çox az olduğu və ya ümumiyyətlə olmadığı bir nöqtəyə gəlib çıxdıqları zaman qarşılaşdıqları ən sadə tapşırıqları belə yerinə yetirməkdə çətinlik çəkirlər. Bu zaman müəllimlər şagirdlərin motivasiyasını artırmaq üçün fərqli üsullardan istifadə edə və mükəmməl öyrənmə mühiti yarada bilərlər. Əgər şagird öyrənə bilmirsə, bunun əsas səbəblərindən biri dərsə, mövzuya maraq göstərməməsidir. Müəllimin görəcəyi ilk iş həmin marağı təmin etməkdir. Dərs zamanı motivasiyası yüksək olan şagird dərslərə tam hazır vəziyyətdə gəlir, dərs müddəti müəllimə suallar verir, maraqlanır, diskussiyalarda iştirak edir, daim öyrənmə həvəsi və enerjisi yüksək olur. Mütəxəssislər burada motivasiya üçün daxili və xarici olmaqla iki faktoru əsas tuturlar. Daxili faktor amilində orqanizmi hərəkətə keçirən ünsür onun özü, xarici faktor amilində isə mühitin orqanizmə təsiri əsas götürülür. Həm daxili, həm də xarici motivasiya uşaqların uğurlu olması üçün çox önəmlidir. Daxili və xarici motivasiyadan biri əksik olarsa, arzu edilən məqsədə müvəffəqiyyətlə çatmaq mümkün olmaz. Mütəxəssislər müəyyən edib ki, müasir dərs bir çox tələblərə cavab verməlidir. Bu tələblərdən biri, bəlkə də, ən vacib olanı dərsin tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, şagirdlərdə, xüsusən də kiçik yaşlı uşaqlarda təlim motivasiyalarının ölçülməsi mütləq xarakter daşıyır (Paşayev, Rüstəmov, 2007). Belə ki, motivasiyası yüksəldilmiş şagird müsbət nəticə əldə edir. Davamlı motivasiyanın olması üçün həm daxili, həm də xarici motivasiya hər ikisinin olması vacib şərtdir. Müəllimlər də şagirdlərin bu motivasiyalarını təmin etməkdə və onları həvəsləndirməkdə önəmli rol oynayırlar. Burada müəllimlərin üstünə düşən əsas vəzifə xarici amillərin təsirlərinin öyrənmə fəaliyyətinə daha faydalı olmasını təmin etməkdir. Uğuru artırmaq üçün müəllimlər müəyyən dövrlərdə üstünlük təşkil edən motivlərə görə hərəkət etməlidirlər. Məktəbdə müsbət yöndə motivasiya aşılamağın əsas yolları kimi, şagirddə özünə inam duyğusu formalaşdırmaq şagirdin maraqları nöqteyi-nəzərindən çıxış etmək, öyrənməni şagird üçün mənalı və dəyərli etmək, hər kəsin özünə uyğun hədəflər seçməsinə yardım etmək, sinifdə öyrənmək üçün zövqverici bir mühit hazırlamaq, şagirdlərin ideallarından və arzularından faydalanmaları təmin etmək, gərəkli anlarda həvəsləndirici çalışmalar təşkil etmək, şagirdin özünə olan hörmətini, güvənini və qürur hissini gücləndirmək göstərilir (Kurikulum və Pedaqogika, 2023).

Müəllimlər şagirdlərin motivasiyasını artıran zaman şagirdlərdə motivasiya ilə yanaşı, özünəinamın artmasına da köməklik göstərir. Özünəinamlı şagird daha çox uğur əldə edir. Özünəinamı yüksəldilmiş şagird uğursuz olsa belə, yeni üsullar sınamaqdan qorxmaz və istədiyi nəticəyə çatana qədər mübarizə aparar. Özünəinam hissi güclü olan öyrənənlər riskə getməkdən və oxuduqları haqqında tənqidi və təhlili xarakterli fikirlər söyləməkdən çəkinmirlər (Sadiqova, 2021).

İdeal olaraq, bütün müəllimlər sinif mühitinin bütün tələbələrin həvəsləndirildiyi bir yer olmasını istəyirlər ki, bu da tələbələr məşğul olur və ən yaxşı işlərini irəli apara bilirlər. Ancaq bəzi müəllimlər üçün bu çətin ola bilər və bunu etmək üçün iki növ motivasiyanın balanslı olduğundan əmin olmaq lazımdır. Bu iki motivasiya yaxınlaşma (irəliləmək üçün bir səbəbi göstərir) və qaçmaqdır (uzaqlaşmaq üçün bir səbəbi göstərir). Aşağıdakı təlimatlar gələcəkdə tələbələri daha da stimullaşdıracaq motivasiya aşılaya bilər (Təhsildə motivasiya nədir).

Şagirdlərdə daha çox motivasiya hissi inkişaf etdirməyin bir yolu aydın məqsədləri müəyyənləşdirməkdir. Sinfə girən kimi hədəf dəqiq müəyyənləşdirilməlidir. Tələbələrin davamlı olaraq işləmək üçün əsaslandırılmış vəzifələri olduğu üçün ilin əvvəlində hədəfləri detallaşdırmaq müəllimin məsuliyyətidir (Qədirov, 1969).

Bütün şagirdlərin fəliyyətdə iştirak etməsi onların motivasiyasını artıra bilər. Sinifdəki bütün şagirdlərin müxtəlif qruplara bölünərək verilmiş tapşırığı yerinə yetirməsi onların motivasiyasını artırmağa çox böyük köməklik göstərər. Ancaq müəllim bu qrupları yaradan zaman şagirdlərin bilik

səviyyəsini nəzərə alaraq bərabər şəkildə qrupları yaratmalıdır. Daim bir sinif mühitində fənlər öyrənmək bir müddətdən sonra tələbələr üçün darıxdırıcı ola bilər. Bunun nəticəsində müəllimlər dərs planlarına gəldikdə, dekorasiya dəyişikliyinə daxil olmağa çalışmalı, bu şagirdləri həvəsli olmağa və yeni material öyrənməyə hazır olmağa çağırır. Nümunələr məktəb gəzintilərində iştirak etmək, sinifdə danışmaq üçün qonaq gətirmək, tədqiqat üçün kitabxanaya getmək və ya kənarda dərs keçirmək ola bilər. Bu beyin üçün təravətləndiricidir və motivasiyalı qalmaq üçün bir çox ehtiyac qığılcım əlavə edə bilər (Sadiq, Tağıyeva, 2022).

Müəllimlərin şagirdlərində daha çox motivasiya hissi inkişaf etdirməsinin başqa bir yolu şagirdlər arasında rəqabət yaratmaqdır. Dərsdə bəzən rəqabətin yaradılması şagirdlərin məsələnin həllinə diqqətini toplamağa və hədəfə çatmağa ümid verə bilir. Bu rəqabətin sonunda şagirdlərin mükafatlar qazanması mükəmməl motivasiya səbəblərindən biri olur. Mükafatı hər kəs sevir. Müəllimin şagirdlərə verdiyi kiçik hədiyyələr onların motivasiyalarını yüksək tutacaqdır. Mükafat olaraq pizza şənlikləri, bərabər film izləmək kimi düşünülmüş zərif mükafatlar onların motivasiyasını yüksəlməsinə və daha çox çalışmalarını təmin edə bilər. Amma müəllimlərin tez-tez mükafatlar verməsindən yayınması vacibdir. Tələbələrin davamlı mükafatlandırılması həmişə davamlı motivasiya ilə nəticələnmir və tələbələr yalnız onlara hansısa bir fayda verildiyi təqdirdə məsələnin həlli üçün çalışmağı seçə bilərlər (Middleton, Perks, 2014). Tələbələrin hər dəfə mükafat alacağına ümid etməkdən fərqli olaraq, daha yaxşı olmaları üçün həvəsli olmağı seçmələri üçün bir tarazlıq yaradılmalıdır. Şagirdlərin hər müvəffəqiyyət qazandıqları zaman müəllim tərəfindən təriflənməsi və etdikləri işin nümayiş etdirilməsi onlarda yüksək əhvali-ruhiyyəyə səbəb olur. Şagirdlər bir mövzu ilə mübarizə etdiklərini və ya həmyaşıdları ilə müqayisədə sinifdə geridə qaldıqlarını hiss etdikləri zaman məyus olmağa meyillidirlər. Bu kimi hallarda müəllimlər uğur qazanmağın hər zaman davamlı mümkün olmadığı fikrini aşılamaq üçün çox çalışmalıdırlar. Şagirdlər üçün müsbət rəy və ya təkliflər onları həvəsli olmağa və qarşılaşdıqları hər hansı bir problemi aradan qaldırmağa təşviq edir (Millacci, 2022).

Şagirdlərə çox sayda tapşırıq vermək onlar üçün monotonluq təşkil edəcək. Dərsin monoton keçməsi şagirdlərdə motivasiya düşüklüyü yaradacaq. Motivasiyanı yüksəltmək üçün az sayda tapşırıqlar vermək və bu tapşırıqların həlli üçün əyləncəli və maraqlı oyunlardan istifadə etmək lazımdır (Tələbə motivasiyası nədir? Necə artırmaq olar?).

Şagirdlərin motivasiyasını artırmaq üsullarından biri də sinif daxilindəki bütün şagirdlərin hörmət edildiyi bir mühit yaratmaqdır. Şagirdlərin başqaları tərəfindən günahlandırılmaması öz fikrini və həll üsulunu sərbəst şəkildə ifadə etməyə və verilən tapşırıqda öz potensialını ortaya qoymağa motivasiya edəcəkdir. Müəllimlər üçün şagirdləri motivasiya etməyin ən yaxşı üsullarından biri də yeni biliklər öyrətmək üçün həvəsli olduğunuzu hiss etdirmənizdir. Şagirdlər müəllimin öyrətmək mövzusunda həvəsli olduğunu görən zaman, onlar da öyrənmək üçün daha həvəsli olacaq (Tələbələrinizi necə motivasiya edə bilərsiniz?).

Sinif daxilində bütün şagirdlər dərsə eyni reaksiya verə bilməzlər. Şagirdlərdən kimisi sakit mühitdə kitab oxumağı, kimisi aktiv fəaliyyəti, ya da qrup halında çalışmağı bəyənir. Şagirdləri motivasiya edə bilmək üçün dərsi tədris etmə üsulunu dəyişdirin və dərsləri bir az qarışdırın. Bu üsul sayəsində şagirdlər hər dərs zamanı fərqli bir şey təcrübə edərək, bəlkə də, öz ən sevdiyi tərzlərini tapacaqlar.

Çox vaxt dərs müddəti ərzində müəllim həmin mövzuya aid suallar verməklə kifayətlənir, bu isə dərsin darıxdırıcı olmasına gətirib çıxarır. Yaxşı olar ki, müəllim öyrədəcəyi mövzuya aid sxemlərdən, şəkillərdən istifadə edərək dərsi daha canlı və rəngarəng etsin. Dərsin gedişində motivasiyanın qeyri-adiliyi və cəlbediciliyi şagirdlərdə öyrədilən mövzuya maraq oyadır və bütün sinifin diqqətinin dərsə yönəlməsinə səbəb olur. Dərs zamanı motivasiyanın yüksəldilməsi üçün dərsdə verilən sualların böyük əhəmiyyəti vardır. Mövzu öyrədilən zaman qapalı suallardan istifadə etmək olmaz. Müəllim sual seçərkən iki və ya daha çox cavabı olan sual seçməlidir ki, şagirdlər çoxlu sayda müxtəlif fərziyyələr irəli sürə bilsinlər. Müxtəlif fərziyyələrin irəli sürülməsi nəticəsində sinifdə mübahisə yaranacaq və dərs daha aktiv keçəcək. Dərsin aktiv keçməsi nəticəsində şagirdlərin həmin fənni öyrənməyə motivasiyası artacaq (Patall, Cooper, & Robinson, 2008).

Şagirdlərdə motivasiyanın artırılması yollarından biri həvəsləndirici mühitin formalaşdırılmasıdır. Həvəsləndirici mühit yaratmaq üsullarından biri sinif otaqlarının rəngarəng boyadılması və sinif otağının divarlarından cəlbedici plakatların asılmasıdır. Sinifdə daim şagirdlərə həvəsləndirici sözlər söyləmək, müvəffəqiyyət qazanan şagirdlərin uğurlarını qeyd etmək lazımdır. Şagirdlərə mütəmadi olaraq müsbət rəy söyləmək onların motivasiyasını yüksəldir. Şagirdlərin uğurlarını müsbət qiymətləndirmək və inkişafını dəstəkləmək şagirdlərin özgüvənini artırır və onlara təlim prosesinə daha six bağlanmağa şərait yaradır (Seyidova, 2015).

## Nəticə

Nəticə olaraq, şagirdin müvəffəqiyyət əldə etməsinin əsas açarı motivasiyadır. Yüksək səviyyədə motivasiya olunmuş şagird qarşısına qoyduğu məqsədə uğurla çatır və bu uğura çatmağa gedən yolda özü ilə yanaşı başqalarına daköməklik göstərir. Bəzən şagirdlərin əksəriyyəti motivasiya almaq üçün müəllimlərinin dəstəyinə ehtiyac duyurlar. Bu zaman müəllim yuxarıda sadaladığımız üsul və metodlardan istifadə edərək, şagirdin motivasiyasını artıra bilər. Motivasiyası yüksəldilmiş şagird hər zaman qarşıya qoyulmuş məqsədə müvəffəqiyyətlə çatır.

## Ədəbiyyat

1. Bayramov, Ə., Əlizadə, Ə. (2006). *Psixologiya.*
2. Qədirov, Ə. (1969). *Uşaqlarda idrak proseslərinin inkişafı.* Maarif.
3. *Müəllimlər üçün "Kurikulum və Pedaqogika fənni üzrə metodiki dərs vəsaiti*". (2023). Taim nəşriyyatı.
4. Paşayev, Ə., Rüstəmov, F. (2007). *Pedaqogika.* Nurlan.
5. Sadiqova, F. (2021). Təhsildə motivasiya və özünəinamın formalaşdırılması. *Azərbaycan məktəbi,* 3(696), 86-91.
6. Seyidova, A. (2015*). Riyaziyyat dərslərində motivasiyanın əhəmiyyəti.* Təhsil kurikulumları: praktik tətbiqlər. NMİ.
7. *Təhsildə motivasiya nədir?* https://sertifika.subu.edu.tr/egitimde-motivasyon-nedir
8. *Tələbə motivasiyası nədir? Necə artırmaq olar?* https://www.kolaykampus.com/blog-detay/ogrenci-motivasyonu-nedir-nasil-artirilir
9. *Tələbələrinizi necə motivasiya edə bilərsiniz?* https://ustunzekalilar/org/tr/makalaler/Icerik/113-Ogrencilerinizi-Nasil-Motive-Edebilirsiniz
10. Middleton, M., & Perks, K. (2014). *Motivation to learn:transforming classroom culture to support student achievement.* Corwin Press.
11. Millacci, T. S. (2022). *How to Motive Students: 12 Classroom tips & Examples.*
12. Patall, E. A., Cooper, H., & Robinson, J. C. (2008). *The effects of choice on instrinsic motivation and related outcomes: A meta-analysis of research findings*. Psychological Bulletin.

Daxil oldu: 12.09.2024
Baxışa göndərildi: 01.10.2024
Təsdiq edildi: 23.10.2024
Çap olundu: 20.11.2024